

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 14 (23.426)

*24 yanvar 2020-ci il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Davosda "Procter and Gamble Europe" şirkətinin prezidenti Loik Tassel ilə görüşü olub.

Loik Tassel görüşə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirib. O, son illərdə Azərbaycanda həyata keçirilən islahatları, xüsusilə biznes sahəsində mühasibatlılığın və şəffaflığın artırılması, vergi və gömrük sahələrində islahatların ümumi rəqabət mühitinə verdiyi müsbət töhfəni yüksək qiymətləndirib.

Prezident İlham Əliyev gələcəkdə də Azərbaycanda xarici investorlar üçün biznes mühitinin daha da yaxşılaşdırılması istiqamətində tədbirlərin görüləcəyini vurğulayıb.

* * *

Ölkəmizin başçısı İlham Əliyev Davosda "Swiss Re" şirkətinin ictimaiyyətlə əlaqələr üzrə sədri Veronika Skotti ilə görüşüb.

Görüşə görə Prezident İlham Əliyevə təşəkkürünü bildirən "Swiss Re" şirkətinin ictimaiyyətlə əlaqələr üzrə sədri Veronika Skotti dövlətimizin başçısı tərəfindən son illərdə aparılan islahatlar nəticəsində Azərbaycanda sığorta sahəsinin inkişafı və təkmilləşməsi üçün yaxşı imkanların yarandığını bildirib. Qeyd edib ki, "Swiss Re" şirkəti Prezident İlham Əliyevin həyata keçirdiyi islahatlarda iştirak etməyə, Azərbaycanda sığorta bazarının daha da inkişafına töhfə verməyə hazırdır.



## "ASAN xidmət" mərkəzinin yaradılması muxtar respublikada innovativ xidmətlərin tətbiqinə yeni imkanlar açacaq

***Son dövrlərdə dünyada müxtəlif innovasiya sistemlərinin və səmərəli idarəçiliyin təmin olunmasında elektron dövlət mühüm rol oynayır. Müasir dövrdə bir çox ölkələr məhz bu tətbiq forması ilə idarəetmədə aşkarlıq və şəffaflığı artırmağa çalışırlar. Çünki elektron dövlət vətəndaş-məmur münasibətlərində birbaşa təması minimuma endirir və dövlət orqanlarının xidmətlərindən istifadəni vətəndaşlar üçün daha əlçatan edir. Beləliklə də, bu xidmətlərdən istifadə zamanı ehtimal olunacaq xoşagəlməz hallar aradan qalxır və nəticədə, vətəndaş məmnunluğu təmin edilmiş olur. İdarəetmədə elektron dövlət mexanizmini tətbiq etməyə çalışan ölkələrdən biri də Azərbaycan Respublikasıdır. Ölkəmizdə bu sahədə görülən ən mühüm tədbir isə "ASAN xidmət" layihəsinin tətbiq olunmasıdır.***

"ASAN xidmət" ölkəmizdə dövlət orqanları tərəfindən vətəndaşlara göstərilən xidmətlərin həyata keçirilməsini təmin edən mərkəzdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq fərmanına əsasən "ASAN xidmət" mərkəzlərinin də strukturuna daxil olduğu Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin yaradılması 2012-ci ilə təsadüf edir. İngilis dilindən tərcüməsi (Azerbaijan Service and Assessment Network) Azərbaycan Xidmət və Qiymətləndirmə Şəbəkəsi olan "ASAN xidmət"in ilk mərkəzi elə həmin ilin dekabr ayında Bakı şəhərində yaradılıb, 2013-cü ilin yanvar ayından isə fəaliyyətə başlayıb. Qısa müddətdə paytaxtın müxtəlif ünvanlarında yaradılan "ASAN xidmət" mərkəzləri tezliklə ölkəmizin müxtəlif bölgələrində də fəaliyyətə başlayaraq daha çox sakinə xidmət göstərməyi qarşısına məqsəd qoyub.

Qeyd edək ki, "ASAN xidmət" mərkəzləri dövlət orqanları tərəfindən göstərilən xidmətlərin vahid və əlaqələndirilmiş formada həyata keçirilməsini təmin edən qurumlardır. Mərkəzlər dövlət qulluqçularının fəaliyyətində əhaliyə münasibətdə vətəndaş məmnunluğunun təmin edilməsi istiqamətində yeni yanaşmanın formalaşdırılmasına, ölkədə dövlət qulluqçusu-vətəndaş münasibətlərinin keyfiyyətcə yeni müstəviyə keçməsinə xidmət edir. Bu gün ölkəmizdə fəaliyyət göstərən "ASAN xidmət" mərkəzlərində vətəndaşlara dövlət orqanı ilə yanaşı, özəl şirkət və müəssisələr tərəfindən də müxtəlif xidmətlər göstərilir.

"ASAN xidmət"in əsas prinsipləri operativlik, şəffaflıq və innovativlikdir. Xidmətlərin göstərilməsində innovativ metodlar vətəndaşlara vaxtlarına və vəsaitlərinə qənaət etməyə imkan verir. Belə ki, vahid mərkəzi ziyarət edən vətəndaşlar onlarla dövlət və özəl təşkilatlar tərəfindən göstərilən müxtəlif xidmətlərdən istifadə edə bilərlər. Xidmətlərin göstərilməsinə görə rüsumlar banklar vasitəsilə ödənilir ki, bu da "ASAN xidmət"in əsas prinsiplərindən olan şəffaflığın təmin edilməsində önəmli paya sahibdir. Mərkəzlərdə həyata keçirilən bütün əməliyyatlar videomüşahidə kameralarının vasitəsilə qeydiyyata alınır. Beləliklə, ehtimal olunacaq bürokratik maneələr tam aradan qaldırılır. "ASAN xidmət" mərkəzlərində növbələrini gözləyən vətəndaşların vaxtlarını rahat və mənalı keçirmələri üçün də hərtərəfli şərait yaradılır. Bununla yanaşı, müxtəlif sosial layihələrin keçirilməsinə də öz töhfəsini verən "ASAN xidmət" mərkəzlərində çalışanların mütləq əksəriyyəti könüllü gənclərdir. Mərkəz tərəfindən həmin gənclərin müxtəlif təlimlərdə iştirakı, təcrübə qazanmaları, layihələr həyata keçirmələri üçün də geniş imkanlar yaradılır.

Fəaliyyət göstərdiyi müddətdə vətəndaşların rəğbətini qazanan "ASAN xidmət" layihəsi beynəlxalq qurumların da diqqətini cəlb edib. 2014-cü ildə İSO 9001:2008 idarəetmə standartı üzrə beynəlxalq sertifikat əldə edən "ASAN xidmət" 2015-ci ildə BMT-nin həmin il üçün Dövlət Xidmətləri Mükafatına layiq görülüb. 2015-ci il martın 2-də isə Britaniya Əməyin Mühafizəsi Şurası tərəfindən 13 sahə üzrə keçirilən, müxtəlif dövlətlərin 700-dən çox müəssisəsinin müraciət etdiyi müsabiqənin "Dövlət xidmətlərinin həyata keçirilməsinin təşkilində təhlükəsiz əmək şəraitinin qurulması" sahəsi üzrə qalibi olub. Eyni zamanda bu Azərbaycan brendi bir çox dünya ölkələrinin də marağını cəlb edib. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev deyib: ***"ASAN bizim intellektual məhsulumuzdur. Mən çox şadam ki, Azərbaycan intellektual məhsul icad edir və bunu ixrac edir. İntellektual məhsulun, xidmətlərin ixracı hesab edirəm ki, bizim gələcək fəaliyyətimizdə çox böyük diqqətə layiq olmalıdır... ASAN dünyada öz fəaliyyətini genişləndirir və bizim gələcəkdə də bir çox ölkələrlə əməkdaşlığımız mümkündür. Əsas şərtimiz ondan ibarətdir ki, Azərbaycanda göstərilən xidmət orada da göstərilsin, çünki bu, bizim brendimizdir və mərkəzin adı bu bütün ölkələrdə ASAN olmalıdır…"***

Məlum olduğu kimi, ölkə başçısı 2020-ci il yanvarın 16-da "Naxçıvan şəhərində "ASAN xidmət" mərkəzinin layihələndirilməsi və tikintisi ilə bağlı tədbirlər haqqında" Sərəncam imzalayıb və sərəncama əsasən Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə bu məqsədlə 8,8 milyon manat ayrılması nəzərdə tutulub. Sərəncamda nəzərdə tutulan məsələlərin həlli istiqamətində görüləcək işlər yaxın gələcəkdə muxtar respublikamızda da "ASAN xidmət"in uğurlu tətbiqinə imkan verəcək.

**Səbuhi HƏSƏNOV**

## Yeni Azərbaycan Partiyası Kəngərli Rayon Təşkilatının şura iclası keçirilib



***Şura iclasında 2019-cu ilin yekunları müzakirə edilib, qarşıda duran vəzifələr müəyyənləşdirilib.***

Tədbirdə Yeni Azərbaycan Partiyası Kəngərli Rayon Təşkilatının sədri Sevda Quliyeva çıxış edərək bildirib ki, ölkəmizin bugünkü inkişafında Yeni Azərbaycan Partiyasının böyük xidmətləri olub. Əsası ulu öndərimiz Heydər Əliyev tərəfindən qoyulan siyasi kurs bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir, bu siyasətin nəticəsində hazırda ölkəmiz güclü dövlətə çevrilib.

Qeyd olunub ki, yüksək inkişaf yolunda inamla addımlayan Naxçıvan Muxtar Respublikasında da bu gün əldə olunan nailiyyətlər ulu öndərin yolunun və ideyalarının uğurla davam etdirilməsinin bariz ifadəsidir. İnkişaf və tərəqqiyə qovuşan Kəngərli rayonunda da həyata keçirilən quruculuq tədbirləri nəticəsində başdan-başa abadlaşıb, infrastruktur ən müasir səviyyədə yenidən qurulub, əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsi və güzəranının yaxşılaşdırılması istiqamətində mühüm işlər görülüb.

Təşkilat sədri vurğulayıb ki, Yeni Azərbaycan Partiyası Kəngərli Rayon Təşkilatının uçotunda 30 ərazi ilk partiya təşkilatında birləşən 3 min 231 partiya üzvündən 1343-ü (41,5 faiz) qadın, 1138-i (35,2 faiz) gənclərdən ibarətdir. 2019-cu ildə Yeni Azərbaycan Partiyası sıralarına 72 üzv qəbul edilib, bunlardan 47-si qadın, 58-i isə gəncdir.

Diqqətə çatdırılıb ki, 2019-cu ildə təşkilatın 4 şura, 11 idarə heyəti yığıncağı keçirilib. Həmin yığıncaqlarda görülən işlərin hesabatı dinlənilib, işin keyfiyyətinin artırılması üçün məqsədyönlü tədbirlər reallaşdırılıb. Ərazi ilk partiya təşkilatlarının fəaliyyətinə nəzarət artırılıb, onlara metodik köməkliklər göstərilib. 2019-cu il ərzində ərazi ilk partiya təşkilatlarında gənc və yaradıcı qüvvələrin Yeni Azərbaycan Partiyası sıralarına qəbul edilməsinə nail olunub, onların siyasi-ideoloji hazırlığı diqqət mərkəzində saxlanılıb.

Bildirilib ki, rayonda tikilən kənd mərkəzlərində partiyanın ərazi ilk təşkilatları üçün hər cür şəraiti olan iş otaqlarının ayrılması bu təşkilatların fəaliyyətinə geniş imkanlar yaradıb. Təşkilatın şura üzvləri kəndlərdə ərazi ilk partiya təşkilatlarında olub, partiya üzvləri və sakinlərlə görüşlər, müxtəlif tədbirlər keçirilib.

Sevda Quliyeva bildirib ki, təşkilati işlər bundan sonra da diqqət mərkəzində saxlanılmalı, vətənpərvər, ictimai işlərdə fəal və təşəbbüskar gənclərin partiya sıralarına cəlb edilməsinə nail olunmalıdır.

Yaradılan şəraitə, göstərilən diqqət və qayğıya görə minnətdarlığını bildirən təşkilat sədri qeyd edib ki, Yeni Azərbaycan Partiyası Kəngərli Rayon Təşkilatı fəaliyyətini qarşıya qoyulmuş vəzifələrə uyğun quracaq, partiya üzvləri muxtar respublikanın ictimai-siyasi həyatında daha fəal iştirak edəcəklər.

Sonra çıxışlar dinlənilib.

Şura iclasında müzakirəyə çıxarılan məsələ ilə əlaqədar qərar qəbul olunub.

**Babək İSMAYILOV**

## Vergilər sahəsində görülən işlər müsbət nəticələr verir

Son illərdə paytaxt Naxçıvan şəhərində vergilər sahəsində irəliləyişlərə nail olmaq üçün bir sıra məqsədyönlü tədbirlər həyata keçirilib. Ticarət obyektlərində nəzarət-kassa aparatlarının quraşdırılması, POS-terminalların sayının ilbəil artırılması və düzgün istifadəsinin təmini, elektron qaimə-fakturaların və asan imzanın tətbiqi vergidənyayınma hallarının qarşısının alınmasına, ödəniş məbləğinin dəqiq aparılmasına, vaxt və maddi itkilərin aradan qaldırılmasına şərait yaradıb. Artıq bütün görülən tədbirlər öz bəhrələrini verməkdədir. Bunu ötən ilin nəticələrində də aydın şəkildə görmək mümkündür. Belə ki, bəhs olunan dövrdə Naxçıvan Şəhər Vergilər İdarəsi tərəfindən dövlət büdcəsinə vergi daxilolmaları üzrə proqnoza 109,9 faiz əməl olunub ki, bu da nəzərdə tutulduğundan 1 milyon 584 min manat artıq vəsait deməkdir. Hesabat dövrü ərzində 1023 vergiödəyicisi qeydiyyata alınıb, onlardan 959-u fiziki, 64-ü hüquqi şəxs olub. Vergiödəyicilərinə bankda hesab açmaq üçün 688 şəhadətnamə dublikat verilib.

Bu gün vergilər sahəsində ən mühüm amillərdən biri də vergi potensialının yerlərə getmədən müəyyən edilməsidir ki, bu da, öz növbəsində, keçirilən kameral vergi yoxlamalarına diqqətin daha da artırılması və səmərəliliyin yüksəldilməsi zərurətini ortaya çıxarır. Ötən il idarə tərəfindən 185 vergiödəyicisində kameral vergi yoxlamaları aparılıb, ki, bunun da nəticəsində 81 min 296 manat əlavə vəsait hesablanıb.

**Xəbərlər şöbəsi**

# Muxtar respublikada ekoloji kənd təsərrüfatının inkişafı özünəməxsus xüsusiyyətləri ilə səciyyələnir

***Ekoloji kənd təsərrüfatı təsərrüfatçılığın kompleks forması olub özündə yüksəkkeyfiyyətli məhsullar istehsal etmək, torpaq münbitliyini, suyun təmizliyini və zəngin biomüxtəlifliyi qoruyub saxlamaq kimi xüsusiyyətləri birləşdirir. Ekoloji təmiz, keyfiyyətli məhsulun əsasını ekoloji əkinçilik təşkil edir. Ekoloji kənd təsərrüfatı modelinin formalaşma prosesi XIX əsrin sonu, XX əsrin əvvəllərində Avropada başlayıb. Əsas məqsədi istehsalda ekoloji təhlükəsiz ərzaq məhsulu prinsipini əsas tutaraq həm iqtisadi, həm də sosial baxımdan tarazlaşdırılmış davamlı təsərrüfatçılıq missiyasını yerinə yetirməkdir. Bu məqsədə nail olmaq üçün torpaqların münbitliyinin yüksəldilməsi və qorunması işi ardıcıl şəkildə həyata keçirilərək kənd təsərrüfatının bütün sferalarında keyfiyyət göstəriciləri daim yaxşılaşdırılmalıdır.***

Ekoloji təsərrüfatçılıq kənd təsərrüfatında alternativ bir sistem kimi növbəli əkin sisteminin tətbiqi yolu ilə torpaq münbitliyinin yüksəldilməsinə, bitkilərin xəstəliklərinə və zərərvericilərinə qarşı mübarizədə qeyri-kimyəvi üsulların tətbiqinə və məhsul artımı üçün istifadə olunan gübrələrin, herbisidlərin, boy stimulyatorların və digər qarışıqların azaldılması prinsiplərinə əsaslanır.

1972-ci ildə ekoloji kənd təsərrüfatını vahid bir ideya ətrafında birləşdirən Beynəlxalq Ekoloji Kənd Təsərrüfatı Hərəkatı Federasiyasının (IFOAM) yaranması ilə bu sahə daha böyük sürətlə inkişaf etməyə başladı. Son illərdə qeyri-sertifikatlı ekoloji təsərrüfatçılıq forması bir çox ölkələrdə geniş şəkildə yayılıb.

Azərbaycanın ekoloji kənd təsərrüfatı məhsulları istehsalı ilə tanınan ərazisi – Naxçıvan Muxtar Respublikasında da aqrar sahədə həyata keçirilən islahatlar və göstərilən dövlət dəstəyi ərzaq təhlükəsizliyinin təmin edilməsinə etibarlı zəmin yaradıb, ekoloji cəhətdən təmiz və keyfiyyətli məhsul istehsalı üçün münbit şərait formalaşıb. Muxtar respublikada ekoloji kənd təsərrüfatının inkişafı məxsusi xüsusiyyətləri ilə səciyyələnir. Müxtəlif araşdırmalar nəticəsində burada ekoloji kənd təsərrüfatının inkişafının iki istiqamətdə aparıldığı müəyyənləşdirilib:

– Aqrar sahənin müasir səviyyədə inkişafı və ekoloji cəhətdən təmiz məhsul istehsalına dair Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən müvafiq fərman və sərəncamların imzalanması, dövlət proqramlarının qəbul edilməsi, ailə təsərrüfatlarının inkişafı və onlara dövlət dəstəyinin göstərilməsi.

Bildiyimiz kimi, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 8 fevral tarixli Sərəncamı ilə “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı” qəbul edilmişdir. Dövlət proqramının əsas məqsədi muxtar respublikanın meyvə və tərəvəzə olan tələbatının yerli istehsal hesabına ödənilməsi, yüksək məhsuldarlığa və keyfiyyət göstəricilərinə malik meyvə tinglərinin və tərəvəz toxumlarının yetişdirilməsi, unudulmuş yerli sortların bərpası, yabanı meyvə bitkilərinin emalı sahələrinin yaradılması işini sürətləndirməkdir. Burada digər məqsəd isə həm də ekoloji təmiz kənd təsərrüfatı məhsullarının istehsalını dəstəkləmək, genetik modifikasiya olunmuş məhsulların muxtar respublikaya idxalının və dövriyyəsinin qarşısını almaqdır.





“Toxumçuluq haqqında” Naxçıvan Muxtar Respublikasının 2017-ci il 25 iyul tarixli Qanununun tətbiq edilməsi barədə Ali Məclisin Sədri tərəfindən Fərman imzalanmışdır. Qanun Naxçıvan Muxtar Respublikasında toxum istehsalının, tədarükünün və istifadəsinin hüquqi əsaslarını müəyyən edir. Bu dövlət sənədi muxtar respublikada əhalinin ekoloji təmiz kənd təsərrüfatı məhsulları ilə təminatının dövlət nəzarətində saxlanılması, əkinçilikdə daha çox ənənəvi, yerli toxum növlərindən istifadəyə üstünlük verilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Eyni zamanda gömrük-keçid məntəqələrində mənşəyi bəlli olmayan ərzaq və kənd təsərrüfatı məhsullarına qadağaların qoyulması da vətəndaşların sağlamlıqlarının qorunmasına göstərilən diqqətin bariz nümunələrindən biridir. Bütün bunlar bir daha təsdiq edir ki, “Toxumçuluq haqqında” Naxçıvan Muxtar Respublikasının Qanunu muxtar respublikada aqrar sektorun daha sağlam təməllər üzərində inkişaf etdirilməsinə zəmanət verir.

Ailə-kəndli təsərrüfatı – ailə üzvlərinin və onlarla birgə fəaliyyət göstərən şəxslərin fərdi əməyi, mülkiyyətində və ya icarəsində olan əmlak əsasında hüquqi şəxs yaratmadan kənd yerlərində istehsal və digər təsərrüfat fəaliyyətinin (məhsulların istehsalını, emalını, saxlanmasını, daşınmasını və satılmasını) birgə həyata keçirilməsidir. 2005-ci il 14 iyun tarixdə qəbul edilmiş “Ailə-kəndli təsərrüfatı haqqında” Azərbaycan Respublikasının Qanunu belə təsərrüfat fəaliyyətinin hüquqi və təşkilati əsaslarını müəyyən edir. Məhz muxtar respublika iqtisadiyyatında diqqətçəkən fəaliyyət istiqamətlərindən biri də ailə təsərrüfatlarıdır. Ailə üzvlərinin birgə əməyinə əsaslanan belə təsərrüfat formaları burada uzun illər ərzində yaranıb, böyük yol keçərək hazırkı inkişaf səviyyəsinə çatıb. Son dövrlərdə dövlət tərəfindən bu fəaliyyət sahəsinin təşviqi ilə bağlı atılan addımlar muxtar respublikada ailə təsərrüfatlarının sayının artmasına imkan vermişdir. 2019-cu il muxtar respublikada “Ailə təsərrüfatları ili” kimi də mühüm əhəmiyyətə malik oldu. Ali Məclis Sədrinin “Naxçıvan Muxtar Respublikasında ailə təsərrüfatlarının inkişafı ilə bağlı” 2019-cu il 18 yanvar tarixli Sərəncamı ilə təsdiq olunmuş Tədbirlər Planına əsasən ailə təsərrüfatlarının sahələr üzrə ixtisaslaşması və yeni belə təsərrüfatların yaradılması dəstəklənir, onların fəaliyyətinin stimullaşdırılmasına dövlət maliyyə dəstəyi göstərilir. Beləliklə, ailə təsərrüfatı həm ailə üzvlərinin məşğulluğunu təmin edir, həm də bazarın yerli məhsullarla təminatında mühüm rol oynayır. Bu təsərrüfat formasını inkişaf etdirməklə ərzaq təhlükəsizliyini təmin etmək qarşıda duran ən mühüm vəzifədir.

14 mart 2019-cu il tarixdə “Naxçıvan Aqrolizinq” Açıq Səhmdar Cəmiyyətində muxtar respublikada yaz-tarla işlərinə hazırlıqla əlaqədar keçirilən səyyar müşavirədə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov deyib: ***“Bu il Naxçıvan Muxtar Respublikasında “Ailə təsərrüfatları ili” elan olunub. Bu, təsadüfən qəbul olunmuş qərar deyil. Artıq muxtar respublikada ixtisaslaşmış ailə təsərrüfatları fəaliyyət göstərir, müxtəlif çeşiddə məhsullar istehsal olunur. Ailə təsərrüfatlarında istehsal olunmuş məhsulların qablaşdırılması üçün tədbirlər görülür,***



***yarmarka və festivallar keçirilir... Ailə təsərrüfatları maarifləndirilməli, kreditlər verilməli, ailə təsərrüfatlarındakı mal-qaranın sayı artırılmalı, əkin atlaslarından səmərəli istifadə olunmalı, torpaqların xüsusiyyətlərinə uyğun əkinlər aparılmalı və meyvə bağları salınmalıdır. Hər bir ailə təsərrüfatı ilə fərdi iş aparılmalı, onlara istiqamət verilməli, istehsal etdikləri məhsullar daxili bazara çıxarılmalı və ixraca yönəldilməlidir. Rayonlar üzrə ailə təsərrüfatları qeydiyyata alınmalı, gələcəkdə ailə təsərrüfatlarının genişləndirilərək fermer təsərrüfatlarına çevrilməsinə şərait yaradılmalıdır”.***

– Ekoloji təmiz ərzaq tələbatının bir hissəsinin yabanı flora hesabına ödənilməsi muxtar respublikada ekoloji kənd təsərrüfatının inkişaf etdirilməsində ikinci istiqamətdir. Bildiyimiz kimi, cəmiyyətdə baş verən proseslər insanların saf və ekoloji təmiz qidaya ehtiyacını getdikcə daha çox artırır. Bazar iqtisadiyyatı, qeyri-sağlam məhsul istehlakı rəqabəti bu tələbatın ödənilməsində müəyyən maneələr ortaya çıxarır. Lakin muxtar respublika florasının zənginliyi yabanı faydalı bitkilərdən, ekoloji cəhətdən təbii məhsullardan istifadəyə geniş imkanlar açır.

Aparılmış tədqiqatlar nəticəsində muxtar respublikanın ayrı-ayrı bölgələrində 500-ə yaxın faydalı bitki növü müəyyən edilmişdir ki, bunlardan 203-ü yabanı tərəvəz, 98-i meyvə-giləmeyvə, 185-i ənənəvi dərman, 88-i boyaq bitkisidir. Eyni zamanda muxtar respublikanın florasında 17 fəsiləyə daxil olan 65 növ ədviyə, 79 növ müxtəlif içki hazırlanan və 17 növ məişətdə istifadə olunan bitki də var. Bu təbii zənginlikdən ekoloji təmiz məhsullar istehsal etmək üçün aşağıdakı tədbirlərin həyata keçirilməsi məqsədəuyğundur:

– Əmtəə məqsədli yabanı qida bitkilərinin tədarükünü həyata keçirmək üçün ehtiyatı bol olan ərazilərdə mini sexlərin, istehlakı üçün isə şəhərlərdə və sanatoriya-turizm bazalarında kiçik market və milli mətbəxlər yaradılması iqtisadi-ekoloji baxımdan səmərəli ola bilər.

– Daxili və xarici tələbatı ödəmək və ticarət dövriyyəsini möhkəmləndirmək üçün əmtəə məqsədli yabanı qida bitki növlərinin mədəni florada introduksiyası və çoxaldıl-masını həyata keçirmək məqsədəmüvafiqdir.

– Tədris müəssisələrində şagird və tələbələrə bu bitkilər və onların mühafizəsinə dair məlumatların çatdırılması, növlərin yayıldığı ərazilərə yaxın yaşayış məntəqələrində məlumat lövhələrinin vurulması, əhali arasında təbliğat işlərinin aparılması məsləhətdir.

Bu gün müasir texnologiyalara əsaslanan yüksək məhsuldar sortlardan ibarət meyvə bağlarının salınması, unudulmuş yerli sortların bərpası, yabanı faydalı bitkilərdən istifadə imkanlarının artırılması, bitkiçilik, meyvə və tərəvəzçilik üzrə əkin dövriyyəsinə yeni sahələrin əlavə edilməsi, mövsümlərarası dövrlərdə əhalinin fasiləsiz giləmeyvə, meyvə, tərəvəz və bitkiçilik məhsulları ilə təmin edilməsi üçün anbar şəbəkələrin və saxlama soyuducu kameraların yaradılması kimi mühüm tədbirlərin həyata keçirilməsi muxtar respublikada daim diqqət mərkəzindədir. Dövlət dəstəyi ilə reallaşdırılan tədbirlər əhalinin ekoloji təmiz ərzaq məhsulları ilə təmin edilməsinə, ailə və fermer təsərrüfatlarının inkişafına, tingçilik və toxumçuluq təsərrüfatlarının yaradılmasına, intensiv texnologiyaya əsaslanan yeni meyvə bağlarının salınmasına, bağçılıq sahəsində milli dəyərlərimizin gələcək nəsillərə çatdırılmasına, ekoloji kənd təsərrüfatının inkişaf etdirilməsinə hərtərəfli təkan verməkdədir.

**Hilal QASIMOV**
***biologiya üzrə fəlsəfə doktoru, dosent***

# Xarici iqtisadi fəaliyyət iştirakçıları ilə növbəti görüş keçirilib

***Gömrük xidməti ilə biznes subyektləri arasında əməkdaşlığın genişləndirilməsi məqsədilə xarici iqtisadi fəaliyyət iştirakçıları ilə növbəti görüş keçirilib.***

Tədbirdə Naxçıvan Muxtar Respublikasının Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-mayoru Səhət Həbibbəyli çıxış edərək bildirib ki, infrastrukturun müasir tələblər səviyyəsində qurulması, iş prosesinin tamamilə avtomatlaşdırılması gömrük rəsmiləşdirmələrinin və malların buraxılışının sürətləndirilməsinə imkan yaradır. Qarşıda duran əsas məqsəd gömrük orqanları tərəfindən xidmətin keyfiyyətini artırmaqdır.

Komitə sədri xarici ticarətin asanlaşdırılması, daxili bazarın qorunması, süni qiymət dəyişmələrinin qarşısının alınması məqsədilə həyata keçirilən tədbirlər, gömrük ödənişləri zamanı sahibkarlara tətbiq olunan güzəştlər barədə də ətraflı məlumat verib.



Komitənin Gömrük əməliyyatlarının və risklərin idarəedilməsi bölməsinin rəisi, gömrük xidməti mayoru İsmayıl Məmmədov muxtar respublikamızda biznes mühitinin daha da yaxşılaşdırılması, sahibkarlıq subyektlərinin dəstəklənməsi istiqamətində görülən işlərdən, “Yaşıl dəhliz” buraxılış sisteminin tətbiqinin əhəmiyyətindən danışıb. Qeyd olunub ki, qısa idxal bəyannaməsinin tətbiqi ilə ticarət-təchizat zəncirində təhlükəsizliyin təmin edilməsinə, risk dərəcələrinin müəyyən olunmasına, gömrük nəzarətinin daha çevik formada həyata keçirilməsinə şərait yaranıb.

Komitənin bölmə rəisi, gömrük xidməti mayoru Emin Eylazov qeyd edib ki, malların və nəqliyyat vasitələrinin bəyan edilməsi, gömrük ödənişlərinin elektronlaşdırılması, gömrük rəsmiləşdirilməsi üçün ilkin məlumatlandırma, idxal-ixrac əməliyyatları, malların nomenklaturası və tarif dərəcələri ilə bağlı məlumatların elektron qaydada əldə edilməsi gömrük işinin kağızsız texnologiya əsasında tətbiqinə imkan verir. Bunun üçün də biznes subyektləri gömrük rəsmiləşdirilməsinin həyata keçirilməsinə mütəxəssisləri cəlb etməli, gömrük təmsilçiliyi xidmətindən geniş istifadə olunmalıdır.

Görüş çərçivəsində Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin yeni internet saytının və (036) 234 nömrəli informasiya-sorğu xidmətinin yenilənmiş versiyasının təqdimatı keçirilib. Komitənin Mətbuat və ictimaiyyətlə əlaqələr üzrə baş məsləhətçi əvəzi, gömrük xidməti polkovnik-leytenantı Rahil Tahirli qeyd edib ki, *www.dgk.nmr.az* saytı müasir dizaynı, funksionallığı, məlumat bazasının zənginliyi ilə seçilir. Xarici iqtisadi fəaliyyət iştirakçıları, səyahətçilər və digər maraqlı şəxslər sayta daxil olmaqla gömrük işinə dair ən son yeniliklər, qanunvericilik aktları, gömrük orqanlarının fəaliyyəti barədə dolğun məlumatlar əldə edə və elektron xidmətlərdən faydalana bilərlər. Sayt vasitəsilə gömrük orqanlarına elektron qaydada müraciət etmək imkanı vardır. Saytın “Naxçıvan Muxtar Respublikası” bölməsində qədim diyarımızın müasir inkişafı, tarixi-mədəni irsi və turizm potensialı əks etdirilir.

Vətəndaşlar muxtar respublika gömrük orqanlarının (036) 234 nömrəli informasiya-sorğu xidmətinə zəng etməklə gömrük əməliyyatları, həmçinin gömrük ekspertizası barədə məlumat əldə edə, gömrük təmsilçisi ilə əlaqə yarada, gömrük sahəsində hüquqpozma faktları ilə bağlı məlumat verə bilərlər. Digər məsələlərlə bağlı operatorla əlaqə yaratmaq da mümkündür. Gömrük sərhədini keçən vətəndaşlar infokökşlərdə quraşdırılmış telefonlar vasitəsilə (036) 234 nömrəsinə birbaşa zəng edə biləcəklər.

Təqdimatlardan sonra diskussiya təşkil olunub.

Tədbirdə Naxçıvan Dövlət Universitetinin Dövlət Gömrük Komitəsinin hamiliyinə verilmiş Dünya iqtisadiyyatı ixtisası tələbələrindən ibarət startap komandasının üzvləri də iştirak edib.

Sonda tədbir iştirakçılarına məlumatlandırıcı vərəqələr paylanılıb.

**Rahil TAHİRLİ**

Yeni nəşrlər

## Cənubi Qafqazda erməni ekspansiyasının məkrli fəaliyyətini ifşa edən dəyərli tədqiqat əsəri

*Dünyanın çox mühüm strateji məkanlarından olan Cənubi Qafqaz son bir neçə yüzilliklər ərzində həm gərgin etnik münaqişələr, hərbi-siyasi qarşıdurmalar, müxtəlif xarici güclərin geosiyasi maraqlarının toqquşmaları meydanı, həm də tarixboyu müxtəlif etnosların, dinlərin və sivilizasiyaların yanaşı, bəzən iç-içə yaşadığı bir məkan olmuşdur. Cənubi Qafqaz zəngin dövlətçilik ənənələrinə malik olub Ön Asiyanın və Yaxın Şərqin bir sıra qüdrətli imperiyalarının mühüm tərkib hissəsini, bəzi hallarda isə özəyini təşkil etmişdir. Nəticədə, region əsrlərboyu qurulan və dağılan imperiyaların maraq dairəsində olmuş, hərbi yürüş və müharibələr meydanına çevrilmişdir.*



Cənubi Qafqaz ərazilərinə sonralar yerləşdirilən yad, köçürülüb gətirilmə etnos olan erməni toplumunun bitməyən əsassız ərazi iddiaları, erməni siyasi-klerikal liderlərinin ekspansionist siyasəti, regionun yerli əhalisinə o cümlədən azərbaycanlıların yaşadığı Lori mahalının ərazilərinin dövlət torpaqları elan edilməsi və bura ermənilərin köçürülməsi üçün hazırlıq işlərinə başlanılması ilə bağlı maraqlı məlumatlara rast gəlinir. Qeyd olunur ki, müsəlman əhalinin sayının azaldılması üçün Azərbaycan xanlıqlarının ərazilərində də oxşar addımlar atılmış, Rusiya imperiyasının get-gedə sərtləşən müstəmləkə üsuli-idarəsindən qaynaqlanan sıxışdırmalarına, habelə erməni əsilli hökumət məmurlarının özbaşınalığına, təhqir və məhrumiyyətlərə dözməyən nəinki bütöv tayfalar, eləcə də hakim siniflərin bir çox nümayəndələri, din xadimləri, ziyalılar mühacirət etməli olmuşdu.

qarşı onların deportasiya və soyqırımı bu saxtakarlıqları və vandalizmi ifşa edəcək yeni elmi, elmi-kütləvi nəşrlərin yaranması zərurətini də ortaya çıxarmışdır. Naxçıvan Dövlət Universitetinin Beynəlxalq münasibətlər kafedrasının müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Şamxal Məmmədovun yenicə çapdan çıxmış “Sürünən erməni ekspansiyası, Rusiyanın Cənubi Qafqaz siyasəti və köçlər” kitabı da qədim dövrdən müasir dövrə qədər Cənubi Qafqazda gedən etnik-siyasi proseslərə aydınlıq gətirir.

Kitabın elmi məsləhətçiləri akademik İsmayıl Hacıyev, AMEA-nın müxbir üzvləri Musa Qasımlı, Zəhmət Şahverdiyev, elmi redaktoru tarix üzrə fəlsəfə doktoru Emin Şıxəliyev, rəyçi isə tarix üzrə fəlsəfə doktoru, dosent Elman Cəfərlidir. Yeni nəşr müəllimlər, tələbələr, magistrantlar, ideoloji işçilər və geniş oxucu kütləsi üçün nəzərdə tutulub, giriş, 4 fəsil, nəticə, ədəbiyyat siyahısı və əlavələrdən ibarətdir.

Kitabın birinci fəslində müəllif ermənilərin sərsəm ərazi iddialarının, mifik “Böyük Ermənistan” uydurmalarının yüz il əvvəl olduğu kimi, günümüzdə də erməni toplumunun həyat fəlsəfəsinin əsasını təşkil etdiyini təsdiqləyir, “erməni soyqırımı”, ermənilərin qədim mədəniyyətə malik “əzabkeş xalq”, dünyanın “ilk xristian toplumu” olmaları və digər məsələlər etnik düşmənçilik siyasətinə xidmət edən əsassız iddialar kimi dəyərli faktlarla təkzib olunur. Erməni saxtakarlarının tarixi reallıqlara, elmi əsaslara deyil, siyasi ambisiyalara əsaslanan iddialarına rəğmən nə qədim dövrlərdə, nə də erkən orta əsrlərdə onların Qafqazda bir toplum olaraq yaşamaları barədə tutarlı faktların olmamasına aydınlıq gətirilir. Belə bir elmi qənaətə gəlinir ki, orta əsrlərin əvvəllərinə qədər Qafqaz torpaqları və bu regionun yerli əhalisi erməni deyilən bir toplumu tanımırdı. Saxtakar erməni tarixçilərinin uydurma tarix kitablarının əksinə olaraq heç bir sanballı tarixi mənbə ermənilər Qafqaz əsilli etnos olaraq tanımadıqları kimi, Qafqazı da erməni torpaqları olaraq tanımır.

İkinci fəsildə 1801-ci ildə Şərqi Gürcüstanın Rusiyaya birləşdirilməsindən sonra bütün torpaqların, Müəllif haqlı olaraq diqqətə çatdırır ki, I Dünya müharibəsinin başa çatması ərəfəsində regionda baş verən dramatik hadisələr – çarizmin devrilməsi və ikihakimiyyətliliyin yaranması, ardınca baş verən Oktyabr çevrilişi və kommunistlərin hakimiyyətə gəlməsi ilə Rusiyanın Cənubi Qafqaz siyasətində yeni mərhələnin əsası qoyuldu. Cənubi Qafqazda köç proseslərinin növbəti, üçüncü mərhələsi regionun Sovet Rusiyası tərəfindən istilası ilə başladı ki, bu mərhələdə də “erməni amili” özünü bariz şəkildə göstərdi. Yeni nəşrdə qeyd olunur ki, bolşeviklər də sələfləri olan rus çarizmi kimi Cənubi Qafqazı məhz ermənilərin birbaşa yardımı və iştirakı ilə işğal etdilər, buradakı milli dövlətlərin varlığına son qoydular. Bolşeviklər işğalın ilk günlərindən regionda köç proseslərinin yeni dalğasına təkan verdilər. Bu dalğada əsas məqsədi regionda müsəlman-azərbaycanlıların sayını mümkün qədər azaltmaq, ərazi baxımından Türk dünyası ilə mümkün təmas nöqtələrini kəsmək, daxili siyasətdə “erməni amili”nə əsaslanmaq təşkil edirdi. Sanki Rusiya imperiyasının I Pyotr dövründə başlanan Cənubi Qafqaz siyasətində Rusiya kommunistlərinin zamanında da heç nə dəyişməmişdi. Əsərdə həmin hadisələrin elmi-siyasi təhlili bir daha təsdiq edir ki, azərbaycanlıların köçlərə məcbur edilməsi bir neçə istiqamətdə həyata keçirilirdi. Belə ki, keçən əsrin 20-40-cı illərində bütün Cənubi Qafqazda olduğu kimi, Azərbaycan SSR-də əksər mühüm dövlət, partiya və təsərrüfat orqanlarında rəhbər vəzifələrə qeyri-azərbaycanlıların təyin edilməsində erməni amilinə üstünlük verilməsi mərkəzi hökumətin Cənubi Qafqaz siyasətinin ana xəttini təşkil etmişdir. Müəllif vurğulayır ki, erməni ideoloqlarının bütün bu cəhdləri bir məqsədə xidmət edirdi ki, bu da türk-müsəlman xalqlarının tarixən onlara məxsus torpaqlardan yox edilməsi, boşaldılan ərazilərə ermənilərin yerləşdirilməsi, Ermənistan Respublikasının sərhədlərinin genişləndirilməsi idi. Üçüncü fəsildə bu və bu kimi geniş məsələlərə tutarlı tarixi mənbələrə, ədəbiyyatlara və arxiv sənədlərinə əsaslanmaqla aydınlıq gətirilir.

Yeni nəşrin sonuncu fəsli XX əsrin ortalarında və II yarısında Sovet rejiminin antiazərbaycan siyasətində erməni amilindən bəhs edir.

Tədqiqatçı-alim son fəsli ümummilli lider Heydər Əliyevin böyük uzaqgörənliklə dediyi bu fikri ilə tamamlayır: ***“İndi Ermənistan adlanan ərazi, Qərbi Azərbaycan-İrəvan mahalı, Göyçə mahalı, Zəngibasar mahalı, Zəngəzur mahalı bunlar hamısı müsəlmanlar, azərbaycanlılar yaşayan diyarlar olubdur. Təəssüf ki, bu ərazilərdən, diyarlardan müsəlmanlar çıxarılıblar, indi bu ərazilərdə bir nəfər də olsun, müsəlman yoxdur. Bu da Ermənistan millətçiliyi, erməni ekstremizmi, erməni şovinizmi siyasətinin nəticəsidir… Mən buna inanıram, inanıram ki, o yerlərin sahibləri-müsəlmanlar, azərbaycanlılar oraya qayıdacaqlar”.***

Orta əsrlərin məşhur dövlət xadimi və mütəfəkkiri, siyasi idarəçiliyin böyük ustadı olan İbn Xəldun özünün dünyaca məşhur olan “Əl-Müqəddimə” əsərində yazırdı: *“Dövlətin maliyyədə və hərbidə təcəssüm edən dayaqlarının çürüməsi nəticəsində dövlət özü çürüyür…Dövlət məmurlarının zinət, sərvət içərisində yaşamaq cəhdi, həmçinin dövlət üçün zəruri olan ordunu saxlamaq xərcləri ölkədə bahalığı getdikcə artırır. Bu da nəticədə, iqtisadiyyatın dağılmasına gətirib çıxarır”.*

Bu gün ordusu pozulan, əhalisi səfil-sərgərdan həyat keçirən, iqtisadiyyatı çökən, nəinki məmurları, hətta yüksəkrütbəli hərbçiləri belə, korrupsiya və rüşvət bataqlığında boğulan Ermənistan məhz İbn Xəldunun böyük uzaqgörənliklə dediyi fikrin real nəticəsini əks etdirir. Bu isə “Böyük Ermənistan” xülyası ilə yaşayan, reallıqda isə xarici güclərin forpostu və əlaltısı olan bir ölkənin özünün gələcəyini şübhə altına alır.

*Əminliklə demək olar ki, Naxçıvan Dövlət Universitetinin Beynəlxalq münasibətlər kafedrasının müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Şamxal Məmmədovun “Sürünən erməni ekspansiyası, Rusiyanın Cənubi Qafqaz siyasəti və köçlər” kitabı qədim dövrdən müasir mərhələyə qədər Cənubi Qafqazda həyata keçirilən etnik münaqişələrin, hərbi-siyasi qarşıdurmaların, xarici güclərin geosiyasi maraqlarının və sair kimi məsələlərin öyrənilməsində etibarlı və zəngin mənbə rolunu oynayacaqdır.*

**Arzu ABDULLAYEV**
**Naxçıvan Dövlət Universitetinin Beynəlxalq münasibətlər kafedrasının baş müəllimi**

## “Müasir mərhələdə multikulturalizm” mövzusunda elmi konfrans keçirilib

*Naxçıvan Dövlət Universitetində “Müasir mərhələdə multikulturalizm” mövzusunda elmi konfrans keçirilib.*

Fəlsəfə və sosial iş kafedrasının professoru, fəlsəfə üzrə elmlər doktoru, Azərbaycan Respublikasının Əməkdar müəllimi Məmməd Rzayev bildirib ki, qlobal problemlərin həllində multikulturalizm mühüm rol oynayır. Professor ölkəmizdəki multikultural, tolerant mühitin üstünlüklərindən danışaraq Azərbaycanın bu sahədə əldə etdiyi uğurların dünya dövlətləri, ölkəmizə gələn qonaqlar tərəfindən də etiraf edildiyini və yüksək qiymətləndirildiyini diqqətə çatdırıb.



Universitetin rektoru, dosent Elbrus İsayev konfransda çıxış edərək bildirib ki, əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan multikulturalizm Azərbaycançılıq məfkurəsinin tərkib hissəsi kimi çox mühüm əhəmiyyətə malikdir. Xalqımızın həyat tərzinə çevrilən multikulturalizm, eyni zamanda dövlət səviyyəsində də həmişə təbliğ olunur. Rektor artıq 2015-ci ildən universitetdə “Multikulturalizm” tədrisindən danışıb və qeyd edilib ki, Naxçıvan Dövlət Universiteti multikulturalizmi seçmə fənn kimi tədris proqramına daxil edən ilk ali təhsil ocaqlarından biridir.

Beynəlxalq münasibətlər kafedrasının müdiri, dosent Şamxal Məmmədov, Fəlsəfə və sosial iş kafedrasının baş müəllimi, fəlsəfə üzrə fəlsəfə doktoru Bağır Babayev, Azərbaycan tarixi kafedrasının müəllimi Zamin Əliyev elmi konfransda çıxış edərək multikulturalizmin anlayış kimi yeni həyat tərzi və mahiyyət baxımından qədim tarixə malik olmasından, ölkəmizin multikulturalizm və tolerantlıq sahəsindəki təcrübəsi ilə tanınmasından ətraflı danışıblar.

**Telli MUSTAFAYEVA**

## Yeni eksponatların təqdimatı olub



Yanvarın 23-də Babək rayonunun Nehrəm kənd sakini, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi Akif Hacıyev, Vayxır kənd sakini Əli İsmayılov, Şıxmahmud kənd sakini Həcər Musayeva və Kültəpə kənd sakini Məhsəti Səfərova tərəfindən Babək Rayon Tarix-Diyarşünaslıq Muzeyinə qədim tariximizi və mədəniyyətimizi əks etdirən 110 eksponat hədiyyə edilib.

Bu münasibətlə keçirilən tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasının Mədəniyyət naziri Natəvan Qədimova bildirib ki, nazirliyin tabeliyində 30 muzey və muzeytipli müəssisə fəaliyyət göstərir.

Naxçıvanda muzeyşünaslığın inkişafına, yeni muzeylərin fəaliyyətinə, maddi mədəni irsimizin təbliğinə göstərilən qayğıdan danışan nazir vurğulayıb ki, muxtar respublikada muzey fondlarının zənginləşdirilməsi, onların yeni eksponatlarla təmin olunması daim diqqət mərkəzində saxlanılır. Bu prosesdə muzey əməkdaşları və muxtar respublika vətəndaşları da yaxından iştirak edirlər. Məhz bu cür vətəndaşlıq mövqeyinin sərgilənməsinin nəticəsidir ki, ötən il muzeylərimizə 2348 ədəd eksponat daxil olub. 2019-cu ildə 15 eksponat təqdimatı keçirilib. Babək Rayon Tarix-Diyarşünaslıq Muzeyində keçirilən tədbir də görülən işlərin nəticəsi kimi qiymətləndirilməlidir.

Bildirilib ki, xalqımızın həyat tərzini, məişətini özündə yaşadan maddi mədəniyyət nümunələri – xalça məmulatları, tariximizin müxtəlif dövrlərinə aid toxuculuq alətləri, məişətdə istifadə edilən mis qablar Babək Rayon Tarix-Diyarşünaslıq muzeyinə təhvil verilir. Bu maddi mədəniyyət nümunələri muzey ziyarətçilərində tarix və etnoqrafiyamız ilə bağlı dərin təəssürat yaratmaqla yanaşı, tədqiqatçı alimlərin də elmi-tədqiqat işlərinin faktlarla zənginləşdirilməsi işinə də mühüm töhfə olacaqdır.

Nazir çıxışının sonunda muzey ekspozisiyalarının zənginləşdirilməsi işində yaxından iştirak etdiklərinə görə eksponat hədiyyə edən vətəndaşlara təşəkkür edib.

Tədbirdə eksponat hədiyyə edənlərdən Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi Akif Hacıyev, Əli İsmayılov, Məhsəti Səfərova çıxış edərək bildiriblər ki, milli-mənəvi dəyərlərin qorunması və yaşadılması istiqamətində görülən işləri davam etdirəcək, maddi mədəniyyət nümunələrinin toplanmasında fəal iştirakçı olacaqlar.

Babək Rayon Tarix-Diyarşünaslıq Muzeyinin direktoru Sərxan Abdullayev muzey fondlarının zənginləşdirilməsi işinə dəyərli töhfə verən rayon sakinlərinə minnətdarlığını bildirib.

Sonda yeni eksponatlara baxış keçirilib.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

## Lisenziyaların verilməsi ilə bağlı seminar-müşavirə

*Dünən Naxçıvan Şəhər Nəqliyyat İdarəsində avtomobil nəqliyyatı ilə sərnişindaşıma xidməti göstərən sürücülərə lisenziyaların verilməsi işi ilə əlaqədar müşavirə keçirilib. Tədbirdə xidmətin şöbə müdiri Elxan Novruzov çıxış edərək Ali Məclis Sədrinin 2018-ci il 22 oktyabr tarixli Fərmanının əhəmiyyətindən danışıb.*

Xidmətin sektor müdiri Zaur Əliyev lisenziyanın verilməsi qaydaları və şərtləri haqqında məlumat verərək bildirib ki, avtomobil nəqliyyatı ilə sərnişindaşıma xidməti istehlakçılarının qanuni maraqlarının qorunması, bu sahədə qanun pozuntusunun qarşısının alınması, daşımaların təhlükəsizliyi, ətraf mühitin və əməyin mühafizəsinin təmin olunması məqsədilə avtomobil nəqliyyatı ilə sərnişindaşıma xidməti göstərən sürücülərə lisenziyanın verilməsi vacib məsələdir. Bildirilib ki, muxtar respublika ərazisində bu fəaliyyətlə məşğul olan 150-dən artıq sahibkara yenidən lisenziya verilib.

Diqqətə çatdırılıb ki, lisenziyanın qüvvədəolma müddəti bir ildir. Çıxışda yeni lisenziyaların alınması ilə bağlı sənədləşmə işləri haqqında ətraflı söhbət açılıb.

Tədbirdə qanunsuz sərnişindaşıma fəaliyyəti göstərənlərə qarşı atılan addımlardan da bəhs olunub.

Sonra sürücüləri maraqlandıran suallar cavablandırılıb, lisenziya almaq üçün müraciət edən sahibkarlara yeni lisenziyalar təqdim olunub.

**Nail ƏSGƏROV**

## “Türkdilli əlyazma və çap kitabları kataloqu” nəşr ediləcək

*AMEA Naxçıvan Bölməsinin Əlyazmalar Fondunda “Türkdilli əlyazma və çap kitabları kataloqu” çapa hazırlanır. Bu münasibətlə fondda sözügedən nəşrin müzakirəsi keçirilib.*

Kataloqun tərtibçisi fondun direktoru, filologiya üzrə elmlər doktoru Fərman Xəlilov bildirib ki, yeni nəşrdə fondda mühafizə olunan 200-dək türkdilli əlyazma və çap kitabların elmi təsviri verilib. Oxucuların kataloqdan istifadəsini asanlaşdırmaq məqsədilə kitabın sonuna “Göstəricilər” bölməsi əlavə edilib.

Müzakirədə fond əməkdaşlarından fəlsəfə üzrə fəlsəfə doktoru, dosent Səbuhi İbrahimov, Fəxrəddin Eylazov, fondun elmi işçisi Kübra Vəliyeva və Nicabət İslamova çıxış edərək çapa hazırlanan kataloqun gələcəkdə aparılacaq tədqiqatlar üçün önəmli tarixi mənbəyə çevriləcəyini vurğulayıb, nəşrlə bağlı fikir və mülahizələrini söyləyiblər.

Qeyd edək ki, Əlyazmalar Fondunda 500-dən çox qədim əlyazma və çap kitabları mühafizə olunur. 2016-cı ildən etibarən fond əməkdaşları həmin əlyazma və çap kitablarının kataloqunun hazırlanması işlərinə başlayıb. “Farsdilli əlyazma və əski çap kitablarının kataloqu” adlı ilk kataloq 2018-ci ildə bölmənin “Tusi” nəşriyyatı tərəfindən çap olunub.

***AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi***

*Şahmat möcüzəli bir oyundur. Bu idman növü hələ uşaqlıqdan insanda qalib gəlmək əzmi formalaşdırır, onun zehni inkişafında mühüm rol oynayır. Deyirlər, şahmat formaca oyun, məzmunca incəsənət, bu oyuna yiyələnmə çətinliyinə görə elmdir. Buna görə də şahmatı təkcə idman növü kimi deyil, eyni zamanda insan məntiqini zənginləşdirən elm kimi də qəbul etmək lazımdır. Ümumiyyətlə, şahmatın insana aşıladığı müsbət xüsusiyyətlər çoxdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov çıxışlarının birində bu məsələni xüsusi vurğulayaraq demişdir:* ***"Uşaqların zehni inkişafında şahmatın xüsusi rolu var. Bu oyun onlara birinci olmağı, qalib gəlməyi təlqin edir. Bu, oğlanlar üçün daha çox vacibdir. Ona görə ki, onlar gələcəkdə torpaqlarımızın müdafiəçiləri olacaqlar. Şahmat gənclərdə özünəinam, liderlik keyfiyyətləri aşılayır. Odur ki, muxtar respublikada bu işə xüsusi diqqət yetirilir".***

# Naxçıvan şahmatı yeni inkişaf mərhələsində



2002-ci ildə Naxçıvan Muxtar Respublikasında Şahmat Federasiyasının yaradılması və Naxçıvan şəhərində şahmat məktəbi üçün yeni binanın tikilib istifadəyə verilməsi bu sahənin inkişafına mühüm təsir göstərdi. Düz bir il sonra Naxçıvan şəhərində gənclər arasında şahmat üzrə dünya çempionatının keçirilməsi bütün dünyada böyük əks-səda doğurdu. O zaman muxtar respublikada sabitlik, yarışlar üçün ideal şərait yaradılmasaydı, dünyanın 36 ölkəsindən gələn şahmatçılar qəbul edilə, yarışın yüksək səviyyədə keçirilməsi təmin oluna bilməzdi. Məhz bu tədbirlər "bəşər tarixinin ən qocaman kəşfi" adlandırılan şahmat idman növünə muxtar respublikada uşaq, yeniyetmə və gənclərdə marağı daha da artırdı. Həmin yarışın uğurlu təşkili Naxçıvanda möhtəşəm idman tədbirlərinin, beynəlxalq şahmat festivallarının yüksək səviyyədə keçirilməsinə səbəb oldu, bu istiqamətdə davamlı xarakter alan tədbirlər şahmatın daha da inkişafına böyük təkan verdi. 2009-cu ildə isə Naxçıvan şəhərində ölkə Prezidenti cənab İlham Əliyevin iştirakı ilə ən müasir avadanlıqlarla təchiz edilmiş Şahmat Mərkəzinin istifadəyə verilməsi naxçıvanlı şahmatçıların böyük sevincinə səbəb oldu. Bu istiqamətdə həyata keçirilən quruculuq tədbirləri təkcə Naxçıvan şəhəri ilə məhdudlaşmadı, muxtar respublikanın bütün rayonlarında şahmat məktəbləri üçün yeni binalar tikilərək istifadəyə verildi.

Hazırda şahmat məktəblərində, ümumilikdə, 250-dən artıq qrup fəaliyyət göstərir və bu qruplarda 3000-dən artıq gənc şahmatla məşğul olur. Son illərdə muxtar respublikanın bütün ümumtəhsil məktəblərində şahmat siniflərinin yaradılması, həftədə 2 saat olmaqla, şahmat dərslərinin tədrisinə başlanılması gənclərin bu idman növünə marağını xeyli artırıb. Mütəmadi olaraq Şahmat Mərkəzində müəllim və şagirdlər üçün bütün ümumtəhsil məktəblərinin və şahmat məktəblərinin qoşulduğu interaktiv dərslər keçilir.

2018-ci ilin sentyabr ayında Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasında aparılan kadr islahatı Naxçıvan şahmatının tarixində yeni və davamlı inkişaf mərhələsinin əsasını qoydu. Federasiya 2018-ci il dekabrın 10-da Naxçıvan Muxtar Respublikası Ali Məclisində "Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələr haqqında" keçirilən müşavirədə verilən tapşırıq və tövsiyələri əsas tutaraq bir sıra tədbirlər reallaşdırmağa başlayıb. Bu tədbirlər sırasında hər ay muxtar respublikanın bir rayonunda valideynlər, şahmatçılar və müəllimlərlə görüşlərin keçirilməsini, problemlərin müzakirəsi və təkliflərin dinlənilməsini, müvafiq köməkliklərin göstərilməsini, beləliklə də, mövcud çatışmazlıqların aradan qaldırılmasını, xüsusilə qeyd etməliyik. İlk görüş Şərur rayonunda təşkil olundu və öz bəhrəsini verdi. Belə ki, şahmatçılarımız Astara şəhərində keçirilən Azərbaycan çempionatının seçmə mərhələsində uğurla çıxış edərək final mərhələsinə 11 vəsiqə qazandılar. Sonra ardıcıl olaraq bütün rayonlarda görüşlər keçirildi və həmin görüşlərin birində Azərbaycan Respublikası Şahmat Federasiyasının vitse-prezidenti, Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının sədri Seymur Talıbov bir məsələni xüsusilə vurğulayaraq dedi ki, şahmat məktəblərində heç kəsə məhdudiyyət qoyulmamalı, məktəblilərin öz aralarında oyun oynamaları üçün əlavə sinif otaqları hazırlanmalıdır. Cəmiyyətə şahmatı doğmalaşdırmaq lazımdır. Federasiya olaraq biz də keçirilən yarışları, belə tədbirlərin mətbuatda, sosial şəbəkələrdə işıqlandırılmasına nail olmaqla, şahmatı cəmiyyətə sevdirir, doğmalaşdırırıq.



Bəli, bu gün bütün şahmat məktəblərinin qapısı hər kəsin üzünə açıqdır. Təqdirolunası haldır ki, muxtar respublikada əhalinin bütün təbəqələri şahmata maraq göstərir, dövlət idarələrinin əməkdaşları arasında yarışlar keçirilir. Məhdud fiziki imkanlı gənclər də kənarda qalmır, onlar arasında da şahmat yarışları təşkil edilir. Bir sözlə, Naxçıvanda şahmata maraqlı insanların bu idman növü ilə məşğul olması üçün heç bir məhdudiyyət yoxdur.

Şahmat məşqlərində uşaqların istedadının üzə çıxarılması əsas şərtdir. Bunun üçün peşəkar müəllimlərin olması vacibdir. Məşqçi-müəllimlər və hakimlər üçün seminarların təşkil edilməsi, şahmat müəllimlərinin sertifikasiyaya cəlb olunması bu sahədə hərtərəfli kadrların yetişməsinə şərait yaradıb. Azərbaycan dilində nümunəvi dərs vəsaitlərindən və ədəbiyyatlardan istifadənin təmin edilməsi, şahmatla bağlı maarifləndirmə-təbliğat işlərinin aparılması da mühüm tədbirlər sırasındadır. Qeyd edək ki, 2019-cu il sentyabr ayının 25-də Naxçıvan Şahmat Mərkəzində "Debütdə buraxılmış səhvlərə aid 1000 oyun" kitabının təqdimatı olmuş, şahmat müəllimləri ilə görüş keçirilmiş, yeni kitabdan hər bir müəllimə hədiyyə edilmişdir.

Federasiyanın yeni saytının yaradılması ilə onlayn yarışların keçirilməsi, beynəlxalq şahmat təşkilatları ilə əlaqələrin qurulmasına nail olunması Naxçıvanda şahmatın inkişafına öz töhfəsini verir. Məhz bunun nəticəsidir ki, Naxçıvan şahmatçıları müxtəlif beynəlxalq yarışlarda, dünya və Avropa çempionatlarında uğurla çıxış edirlər. Bu gün Naxçıvan dünyada şahmatın mərkəzi olmaq yolunda uğurlu addımlarla irəliləyir. Mütəxəssislərin fikrincə, hər hansı bir ölkədə beynəlxalq yarışlar keçirilərkən 3 əsas meyar nəzərə alınır. İlk növbədə, həmin ölkədə idmanın inkişafı, ikincisi, bu sahədə maddi-texniki bazanın vəziyyəti, üçüncüsü isə təşkilatçılıq. Sevindirici haldır ki, bütün bunlar muxtar respublikada yüksək səviyyədədir.

Ötən il ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş "Naxçıvan-2019" Beynəlxalq Şahmat Festivalı da öz möhtəşəmliyi ilə yadda qalıb. Beynəlxalq Şahmat Federasiyasının (FIDE) vitse-prezidenti, Türkiyə Respublikası Şahmat Federasiyasının prezidenti Gülkız Tülay yerli mətbuata verdiyi müsahibəsində bildirdi ki, Naxçıvandakı şahmat məktəbləri bütün dünyaya nümunə göstəriləcək səviyyədədir. Türkiyədə də şahmat inkişaf etdirilib, ancaq təhsildən fürsət qalanda şahmata və yaxud başqa fəaliyyətlərə vaxt ayrılır. Azərbaycanda, o cümlədən muxtar respublikada isə şahmat artıq təhsilin bir hissəsinə çevrilib. Dünyada məşhur şahmatçı kimi tanınan amerikalı qrossmeyster, festivalın qalibi Timur Qarayev Naxçıvanda Beynəlxalq Şahmat Festivalının təşkilatçılıq baxımından möhtəşəm olduğunu dedi. Əlavə etdi ki, burada dünyanın bir çox tanınmış şahmatçıları mübarizə aparır və onlarla eyni turnirdə oynamaq onun üçün qürurvericidir.

Onu da xüsusi vurğulamalıyam ki, budəfəki festivala təkcə Azərbaycan mediası deyil, dünya mediası da reaksiyasız qalmadı. "Bütün dünyanın gözü Naxçıvanda" sərlövhəsi ilə Türkiyənin, Rusiyanın, Ukraynanın xəbər saytlarında rus və ingilis dillərində yazılar yerləşdirildi. İnstagramda *chess_hype, world.of.chess* və başqa məşhur səhifələrdə festivaldan şəkillər paylaşıldı. Beynəlxalq festivalda 14 ölkədən 356 şahmatçının iştirak etməsi, şahmatçılar arasında 20 beynəlxalq qrossmeysterin, 15 beynəlxalq ustanın və 15 FİDE ustasının olması festivala və Naxçıvana göstərilən böyük maraqdan xəbər verirdi. Festivalda naxçıvanlı şahmatçılar uğurlu çıxışlar etdilər. Nəzərə alaq ki, yarışlarda beynəlxalq dərəcəli idmançılar iştirak edirdi. İdmançılarımızın çıxışları isə hər birimizdə gələcəkdə daha parlaq uğurların qazanılmasına böyük ümidlər yaradır. Festivalın iştirakçıları tərəfindən Naxçıvan Muxtar Respublika Stadionunda 96 naxçıvanlı məktəbli və azyaşlı şahmatçı üçün seansın keçirilməsi bu sahə ilə yeni məşğul olan şahmatçılara böyük ruh yüksəkliyi bəxş etdi.

Festivaldan ötən müddət ərzində naxçıvanlı şahmatçılar xeyli uğura imza atıblar. Bir neçəsinə nəzər yetirək: 2019-cu ilin 31 may-8 iyun tarixlərində Rumıniyanın Mamaia şəhərində keçirilən şahmat üzrə məktəblilər arasında Avropa çempionatında Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının 4 zəka sahibi də mübarizə apararaq uğurlu nəticələr əldə ediblər. Ötən il Türkiyənin Ankara, Sivas, Burdur, Çorum, Mersin və Antalya şəhərlərində keçirilən yarışlarda da şahmatçılarımız onları izləyənləri xeyli sevindiriblər. Həmin ilin 27 oktyabr-7 noyabr tarixlərində Türkiyənin 16 yaşadək şahmatçıları arasında dünya şahmat olimpiadası keçirildi. Azərbaycan Respublikası Şahmat Federasiyasının vitse-prezidenti, Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının sədri Seymur Talıbov Azərbaycan komandasının rəhbəri kimi yarışın açılış mərasimində iştirak etdi, federasiyanın digər üzvləri isə müxtəlif vəzifələrə təyin olundular. Naxçıvan komandası ilk dəfə bu yarışda iştirak edərək 48 komanda arasında 29-cu oldu. Məlumat üçün deyim ki, on altı yaşadək şahmatçılar arasında Ümumdünya Şahmat Olimpiadası 2020-ci ildə oktyabrın 2-dən 12-dək Naxçıvan şəhərində keçiriləcək. Bu da Naxçıvan şahmatı üçün böyük etimaddır.

Ümumiyyətlə, 2019-cu il Naxçıvan şahmatı üçün uğurlu il oldu. İlin sonunda federasiya tərəfindən il ərzində nəticəsi olan bütün şahmatçıların və qaliblərin təltif olunması bu sahə ilə məşğul olanlarda ruh yüksəkliyi yaratdı. Hələ qazanacağımız yüksək qələbələr qabaqdadır. İdman mütəxəssisləri də təsdiq edirlər ki, Naxçıvanı bundan sonra daha böyük nailiyyətlər gözləyir.

*Əminliklə demək olar ki, bu gün Naxçıvanda yaradılan şahmat infrastrukturu, şahmatın inkişafı və tədrisi sahəsində görülən işlər nümunə gücündədir. Bu işləri beynəlxalq səviyyədə tanıtmalı və təbliğ etməli, şahmatın muxtar respublikada kütləviliyinə tam şəkildə nail olmalıyıq. Hamımız – valideynlər, müəllimlər bu işdə maraqlı olmalıdırlar. Evimizdə, ətrafımızda şahmat sahəsində böyük istedada sahib olan yeniyetmə və gənclərimiz çoxdur. Bir dəfə övladınızın yolunu şahmat məktəblərindən salın. Bu məktəblərdə hər cür şərait var. Bəlkə, çempion olmayacaq, amma şahmatla məşğul olsa, o, yaşıdlarından fərqlənəcəkdir. Çünki şahmat onunla məşğul olanlara ən çətin məsələləri həll etmək və yeni fikirlər yaratmaq imkanı verir. Şahmat taxtası üzərinə düzülən fiqurların gedişi insanı qələbəyə doğru aparır. Qoy muxtar respublikada qələbəyə doğru addımlayan gəncliyimiz yetişsin. Həm ən yaxşı şahmatçı, həm də ən yaxşı startapçılar…*

**Sara ƏZİMOVA**

## Paralimpiya Federasiyasının yığıncağı keçirilib



*Dünən Naxçıvan Muxtar Respublikası Paralimpiya Federasiyasının ötən ilin yekunları və qarşıda duran vəzifələrlə bağlı yığıncağı keçirilib.*

Federasiyanın sədri Nicat Babayev yığıncaqda çıxış edərək bildirib ki, Naxçıvan Muxtar Respublikası Paralimpiya Federasiyası Gənclər və İdman Nazirliyi ilə birgə bütün kateqoriyalardan olan məhdud fiziki imkanlı şəxslərin idman həyatına inteqrasiyası, istedadlı idmançıların aşkara çıxarılması üçün davamlı tədbirlər həyata keçirir. Onların iştirakı ilə idmanın müxtəlif növləri üzrə yarışlar təşkil edilir. Hazırda federasiyanın boccia, stolüstü tennis, qolbol, üzgüçülük və ağırlıqqaldırma bölmələri fəaliyyət göstərir.

Diqqətə çatdırılıb ki, ötən il ərzində paralimpiyaçılar arasında idmanın müxtəlif növləri üzrə 8 muxtar respublika və 18 rayon (şəhər) birinciliyi, 2 yoldaşlıq görüşü keçirilib. Həmin yarışlara 292 nəfər cəlb olunub ki, onların 267 nəfərini oğlanlar, 25 nəfərini qızlar təşkil edir. Bununla yanaşı, muxtar respublika paralimpiyaçılarının mütəmadi olaraq respublika səviyyəli yarışlarda iştirakı təmin edilir. Ötən il noyabr ayında Bakı şəhərində Abşeron Olimpiya İdman Kompleksində keçirilən V Respublika Uşaq Paralimpiya İdman Oyunlarında iştirak edən Paralimpiya Federasiyasının 3 təmsilçisinin 4 medal qazanması, həmçinin Bakı şəhəri "Zirvə" idman klubunda parapauerliftinq üzrə açıq respublika birinciliyində iştirak edən idmançımızın öz çəki dərəcəsində III yerin sahibi olması mühüm uğurdur.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman naziri Azad Cabbarov çıxışında vurğulayıb ki, muxtar respublikada uğurla fəaliyyət göstərən idman federasiyalarından biri də 2006-cı ildə yaradılan Paralimpiya Federasiyasıdır. 207 sağlamlıq imkanları məhdud şəxs federasiyanın bölmə və qruplarında idmanla məşğul olur. Azad Cabbarov Paralimpiya Federasiyası ilə birgə idmanın bu növünün inkişaf etdirməsi və kütləviliyinin təmin olunması məqsədilə keçirilən çoxsaylı tədbirlər barədə məlumat verib.

Gənclər və İdman naziri Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə idmana göstərdiyi diqqət və qayğıya görə minnətdarlığını bildirib.

Naxçıvan boccia idman növü bölməsinin məşqçisi Zaur Hüseynov isə çıxışında ötən il görülən işlər barədə məlumat verib.

Sonda ötən il uğur qazanan idmançılar mükafatlandırılıb.

**Ceyhun MƏMMƏDOV**

**İtmişdir**

"Cahan Red-2" Məhdud Məsuliyyətli Cəmiyyətinə məxsus hüquqi sənədlər itdiyindən etibarsız sayılır.

**ŞƏRQ qapısı**

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Güntac Şahməmmədli

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 67